**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№300/2** **18 may 2018-ci il**

**2017-ci ilin nəticələri üzrə auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi barədə**

“Azərbaycan Respublikasında Auditor Xidmətinin İnkişaf Konsepsiyasının (2012-2020-ci illər)” VI fəslinin 16-cı bəndinə və Auditorlar Palatasının 2018-ci il üzrə iş planının 1.3-cü “2017-ci ilin nəticələri üzrə auditorların reytinq səviyyəsinin müəyyən edilməsi” bəndinin icrası ilə əlaqədar və Auditorlar Palatası Şurasının 2012-ci il 17 iyul tarixli 233/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditorların (auditor təşkilatlarının) reytinqinin müəyyənləşdirilməsi barədə Qayda”ya əsasən sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun təqdim etdiyi materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. 2017-ci ilin nəticələri üzrə auditor təşkilatlarının və sərbəst auditorların reytinq səviyyəsinin müəyyən edilməsi ilə əlaqədar hazırlanmış “Auditorların reytinq cədvəli” bəyənilsin (əlavə olunur).
2. Auditin təşkili və kadr hazırlığı idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, iki həftə müddətində “Auditorların reytinq cədvəli”ndə hər kateqoriya üzrə 1-ci, 2-ci və 3-cü yeri tutmuş Palatanın üzvlərinə fərqlənmə diplomlarının təqdim edilməsi ilə əlaqədar təşkilati işləri həyata keçirsin.
3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Auditin təşkili və kadr hazırlığı idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, on gün müddətində göstərilən auditor və əlaqəli xidmətlərin növləri, ictimai əhəmiyyətli qurumlarda auditin aparılması, Palatanın ictimai həyatında və təşkil etdiyi ixtisasartırma kurslarında iştirakı, auditor təşkilatlarının işçi heyətində icazəli və beynəlxalq sertifikatlı əməkdaşların olması nəzərə alınmaqla auditor xidmətinin reytinqinin yeni nominasiyalarının təyin edilməsi məqsədilə Komissiyanın yaradılması barədə təkliflərini təqdim etsinlər.
4. Bu qərarın mətninin və “Auditorların reytinq cədvəli”nin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**